# "Petkim" – Türkiyədə ilk və tək inteqrasiya olunmuş neft-kimya kompleksi

***Dekabrın 2-də "SOCAR Türkiyə"nin İzmirdə yerləşən möhtəşəm ofisində Azərbaycandan gələn media nümayəndələri ilə "SOCAR–Türkiyə Emal və Neft Kimya İş Birliyi"nin rəhbəri və "Petkim"in baş direktoru Anar Məmmədov görüşdü. Baş direktor rəhbərlik etdiyi istehsal sahələrində əldə edilən uğurlar və qarşıda duran vəzifələr barədə geniş və müfəssəl məlumat verərkən bildirdi ki, SOCAR-ın 2008-ci ildə satın aldığı "Petkim" hazırda Türkiyədə ilk və tək inteqrasiya olunmuş neft-kimya zavodudur. Alındığı vaxtdan bəri hər il "Petkim"ə, təxminən, 100 milyon dollar investisiya qoyulub. Bu investisiyaların hamısı "Petkim"in öz imkanları hesabına təmin edilib. Qoyulan əlavə investisiyaların ümumi məbləği 1 milyard dollara çatıb. İllik istehsal gücü 3,6 milyon ton olan zavodun 2020-cu ilin ixrac rəqəmi 574 milyon dollardır. 78 ölkəyə ixracat həyata keçirən "Petkim"in 15 əsas və 6 köməkçi müəssisəsində 60-a yaxın müxtəlif növ məhsul istehsal olunur. Bu məhsullar ölkə daxilində, demək olar ki, bütün sənaye sahələrində 1500-dən çox müştəri tərəfindən istifadə olunur. Eyni zamanda, "Petkim" xaricdə 350-dən çox müştəri portfelinə malikdir.***

Baş direktor Anar Məmmədov, həmçinin bildirdi ki, "Petkim" ilə inteqrasiya olunmuş şəkildə tikilən STAR Neft Emalı Zavodu sayəsində neft-kimya məhsulları müəssisəsi xammal olan naftanı dünyanın müxtəlif yerlərindəki neft emalı zavodlarından idxal etmək əvəzinə, indi birbaşa boru kəməri ilə STAR NEZ-dən götürür və bununla da böyük həcmdə logistika xərclərinə qənaət edir. Digər tərəfdən, əvvəllər fərqli keyfiyyətlərdə idxal olunan nafta əvəzinə, STAR NEZ-dən istənilən keyfiyyətdə nafta almaq "Petkim" üçün daha keyfiyyətli istehsal, səmərəlilik və xammal təchizatı təhlükəsizliyini reallaşdırır.

Çıxışda xüsusi vurğulandı ki, pandemiya dövründə "Petkim"in istehsalı fasiləsiz və müvəffəqiyyətli davam etdirə bilməsində ən əhəmiyyətli amil STAR NEZ-lə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərməsi olub. Dünya bazarlarında ticarətin aşağı düşdüyü bir dövrdə, "Petkim" ehtiyacı olan əsas xammal naftanın STAR NEZ-dən fasiləsiz və yüksək keyfiyyətlə tədarükünü həyata keçirə bildi ki, bu da yüksək həcmli fasiləsiz istehsalın davam etdirilməsini reallaşdırıb.

Digər tərəfdən, "Petkim" Türkiyənin pandemiya müddətində əvvəlki dövrlərdə olduğundan daha çox ehtiyacı olan tibbi vasitələr üçün xammal istehsalına istiqamətləndi və səhiyyə sektoruna əhəmiyyətli dərəcədə töhfə verdi. Pandemiyaya və portfelindəki məhsulların qiymətlərinin aşağı düşməsinə baxmayaraq, "Petkim" 2020-ci ildə əməliyyat gəlirliliyini 21 faiz artıraraq, 1,9 milyard TL-yə çatdırdı. Pandemiya dövründə daxili bazara önəm verən "Petkim"in 2019-cu ildə 60 faiz olan daxili satış payı 2020-ci ildə 67 faizə yüksəldi. Xalis mənfəət isə 14 faiz artaraq 1,1 milyard TL-ə çatdı.

2021-ci ilin üçüncü rübündə neft-kimya məhsulları xərclərinin artmasına və mənfəət marjasındakı azalmaya baxmayaraq, "Petkim" 9 aylıq toplam satışlarını 19,165 milyon TL-yə yüksəltdi. Neft-kimya məhsullarına tələbatın artması ilə birlikdə tədarük məhdudiyyətlərinin yaşandığı bu müddətdə "Petkim" STAR NEZ-ə inteqrasiyası ilə istehsalını fasiləsiz davam etmək üstünlüklərindən də yararlandı. Məhsul müxtəlifliyinin və fasiləsiz istehsalın toplam satışlarda əks olunduğu bu dövrdə tutumlardan istifadə əmsalı əvvəlki illə müqayisədə 89,5 faizdən 92,2 faizə yüksəldi.

Anar Məmmədov 2017-ci ildə istismara verilən 51 meqavat gücündə "Petkim" Külək Enerji Stansiyasının (KES) son illərdəki fəaliyyətinə də xüsusi yer ayırdı və bildirdi ki, təxminən 55 milyon avroluq investisiya vəsaiti hesabına inşa edilmiş "Petkim" KES-də hər biri 3 meqavat gücündə 17 külək turbinindən ildə ümumilikdə 200 QeqaVat elektrik enerjisi istehsal etmək nəzərdə tutulur. İstehsal ediləcək bu enerji miqdarı 40 min ailənin illik ümumi elektrik enerjisi istehlakına bərabərdir.

Türkiyənin yenilənə bilən enerji tutumu və karbon emissiyalarının azaldılmasına kömək edən, beynəlxalq yenilənə bilən enerji sertifikatına (I-REC) sahib olan bu külək enerji stansiyası "Petkim"in enerji tədarükünə kömək etməklə yanaşı, həm də istehsal xərclərində enerji məsrəflərini azaldır. Bundan əlavə, KES-də istehsal olunan enerji "Petkim"in istehsal sahələrinin enerji istehlakına görə şəbəkəyə də verilir.





## Egey bölgəsinin ən böyük terminalı

Azərbaycandan gələn media nümayəndələrinə "SOCAR Türkiyə" "Akaryakıt Depolama A.Ş.", neft məhsullarının və təbii qazın tanklarda saxlanması, quru və dəniz tankerlərinə doldurma əməliyyatları və dəniz tankerlərindən tanklara tökmə əməliyyatları kimi fəaliyyətləri barədə də ətraflı məlumat verildi. Qeyd edildi ki, SOCAR Türkiyəyə məxsus "Akaryakıt Depolama A.Ş." bölgədə maye yanacaq və LPG-nin eyni yerdə saxlandığı yeganə anbar olmaqla yanaşı, həm də Egey bölgəsinin ən böyük, Türkiyənin isə ən böyük 5 anbar terminalından biridir.

Təbii ki, ilk anbar terminalı ilkin mərhələdə belə tutumda olmayıb. Birinci mərhələdə 205 min kubmetr maye yanacaq və 45 min kubmetr LPG saxlama qabiliyyəti ilə təsis edilən "SOCAR Depolama" qurğusuna əlavə olaraq 325 min kubmetr həcmində yeni maye yanacaq saxlama tank layihəsi tamamlanaraq istismara verilib. Hazırda anbar terminalında 530 min kubmetr maye yanacaq məhsulları və 45 min kubmetr LPG saxlama mümkündür. Beləliklə, STAR Neft Emalı Zavoduna boru kəmərləri ilə inteqrasiya olunmuş "SOCAR Depolama", yüksək tutumu sayəsində emal zavodu üçün əməliyyat rahatlığı təmin edir.

Şirkətin "SOCAR Ticarət" bölməsi haqqında məlumat verilərkən Anar Məmmədov qeyd etdi ki, bu bölmə topdan və pərakəndə halda maye yanacaq, hava və dəniz nəqliyyatı yanacağı satışı sahələrində fəaliyyət göstərir. Həmin fəaliyyətlər maye yanacaq paylama sektorunda SOCAR, dəniz nəqliyyatı yanacaqları bazarında "SOCAR MARINE", aviasiya yanacaqları bazarında isə "SOCAR AVIATION" markaları altında həyata keçirilir.

"SOCAR Ticarət" 9-u hava limanı, 2-si Şimali Mərmərə şosesi, 2-si Əliağa, 1-i Yalova RO-RO Gömrük Terminalında olmaqla, 14-ü SOCAR, 76-sı isə diler olmaqla, ümumilikdə 90 yanacaq doldurma məntəqəsi ilə yanacaq paylama sektorunda Türkiyənin hər yerində istehlakçılara xidmət göstərir.

Pərakəndə yanacaq satışı fəaliyyəti istiqamətində Türkiyənin nəhəng layihələrində iştirak etmək strategiyasına uyğun olaraq, birinci mərhələsi 2018-ci il oktyabrın 29-da açılan İstanbul hava limanı ərazisində istehlakçıların, avtomobil kirayəyə verən şirkətlərin, taksilərin və hava limanındakı nəqliyyat vasitələrinin yanacaq ehtiyaclarını ödəmək üçün ilkin olaraq 9 yeni SOCAR yanacaqdoldurma məntəqəsi fəaliyyətə başlayıb. Belə ki, SOCAR illik sərnişin tutumu 200 milyon nəfər olan dünyanın ən böyük aeroportunda həm hava limanı sahəsindəki avtomobillərə, həm də istehlakçılara ümumilikdə, 16 min 280 kvadratmetr sahədə xidmət göstərir.

Jurnalistlərə məlumat verildi ki, topdan yanacaq satışı fəaliyyəti çərçivəsində STAR NEZ-in Ege bölgəsindəki satış gücünü artırmaq məqsədi ilə, xüsusilə, Egey bölgəsində olmaq üzərə Türkiyənin hər yerindən yanacaq satıcıları ilə yanacaq tədarükü üçün müqavilələr bağlanıb. Türkiyənin ən böyük paylayıcı şirkətləri ilə bağlanan təchizat müqavilələrinə əsasən Dərincə, Əliağa, Qırıqqala, Mersin, Antalya, Marmara Ereğlisi, Trabzon və Samsun anbarlarından yanacaq tədarükünə başlanılıb.

2021-ci ildən etibarən istifadəyə verilən yanacaq anbarları ilə Antalya və Dörtyol bölgələrində STAR NEZ məhsullarının satışına başlanılıb. Bu iki yerə əlavə olaraq, qısa müddətdə Mersin bölgəsində satışlara başlanılması planlaşdırılır. İzmir, Antalya və Dörtyol bölgələrində SOCAR-ın idarə etdiyi yanacaq anbarlarından, Türkiyənin digər bölgələrində isə paylaşdırıcı şirkətlər arasında alqı-satqı yolu ilə topdan və pərakəndə yanacaq satışı həyata keçirilir.

"SOCAR MARINE"yə gəldikdə isə bildirildi ki, 2013-cü ildən fəaliyyət göstərən "SOCAR MARINE", 2020-ci ildə 650 min ton satış həcmi ilə beynəlxalq dəniz nəqliyyatı yanacaqları satışında bu sektorun lideridir. "SOCAR MARINE" bazardakı 26 faizlik payı ilə beynəlxalq dəniz yanacağına olan ehtiyacın 25 faizindən çoxunu təmin edir.

Türkiyənin aviasiya sektoruna "SOCAR AVIATION"la 2013-cü ildə daxil olan "SOCAR Türkiyə" hazırda bu sahənin liderlərindən biridir. İstanbulun Sabiha Gökçen hava limanında "Pegasus" hava yolları ilə müqavilə bağlayaraq ilk təyyarə yanacağı tədarükünə başlayan "SOCAR AVIATION" qlobal hava yolu şirkətləri ilə bağladığı müqavilələr sayəsində böyüməyə davam edərək hazırda Ankara, Antalya, İzmir, Trabzon, Bodrum, Dalaman, Samsun və Adana kimi Türkiyənin ən işlək 10 hava limanında xidmət göstərir və bu limanların 9-da "Türk Hava Yollar"ının əsas təchizatçısıdır.

İGA tərəfindən elan edilən təyyarə yanacağı tenderini qazanaraq 5 il müddətində İstanbul hava limanındakı təyyarələrin illik təyyarə yanacağı ehtiyacının 700 min tonunu təmin edən "SOCAR AVIATION", tezliklə Türkiyədə aviasiya yanacağı sektorundakı ən böyük üç şirkətdən biri olub.

Çox keçmir ki, təyyarə yanacağı bazarında performans sərgiləyən "SOCAR AVIATION" Milas-Bodrum hava limanında da öz tədarük müəssisəsini istismara verir və bundan sonra bu hava limanındakı yanacağı öz müəssisələrində tədarük etməyə başlayır. Milas-Bodrum tədarük müəssisəsi 2020-ci il iyulun 21-də Türk Hava Yolları (THY) üçün ilkin yanacaq tədarükünü həyata keçirir. Tədarük müəssisələrində 1500 kubmetr tutumlu üç ədəd təyyarə yanacağı çəni tikilir. Ümumi sahəsi 4 min 105 kvadratmetr olan təsislər, mövcud infrastrukturu ilə illik 70 min kubmetr yanacaq tutumuna malikdir. Bu tutum hava limanının ümumi istehlakının 50 faizinə cavab verir ki, bu da ildə təxminən üç min təyyarəyə yanacaq tədarük etməyə imkan verir.

Fəaliyyət dairəsini genişləndirməkdə olan "SOCAR AVIATION" 2020-ci il dekabrından etibarən Adnan – Menderesdə də öz tədarük müəssisəsini istismara verib. Bu tədarük müəssisəsində 750 kubmetr tutumlu iki təyyarə yanacağı çəni tikilib. Ümumi sahəsi 2500 kvadratmetr olan tikinti, mövcud infrastrukturu ilə illik 182 min kubmetr yanacaq tutumuna malikdir. Bu tutum hava limanının ümumi istehlakının 60 faizini təchiz edir. Bu çərçivədə ildə təxminən doqquz min təyyarəyə yanacaq tədarükünün təmin olunması gözlənilir.

"SOCAR Türkiyə"nin tərkibində olan müəssisələr arasında 2013-cü ildə fəaliyyətə başlayan "SOCAR MARINE"nin də öz yeri var. "SOCAR MARINE"nin beynəlxalq dəniz şirkətlərindən tutmuş yerli gəmi sahibi şirkətlərinə qədər əhatə etdiyi müştəri portfeli, yüksək təcrübəsi, dənizçi kadrları, ehtiyaclara çevik cavab verən quruluşu, üstün məhsul və xidmətlərlə dənizçilik sektorunun inkişafına öz töhfəsini verməklə yanaşı, fəaliyyətləri ilə milli iqtisadiyyata da əhəmiyyətli dərəcədə xarici valyuta axını təmin edir.

"SOCAR MARINE" fərqli xüsusiyyətlərə malik bütün dəniz yanacaqlarının İskəndərun və Mersin bölgələrində ilkin tədarükünü təmin edərək bölgəni beynəlxalq dəniz yanacağı bazarına çıxarmağa başçılıq edib. İzmit Körfəzində yerləşən 80 min kubmetr saxlama tutumu və 14 dəniz tankeri olan güclü tədarük şəbəkəsinə malik "SOCAR MARINE" ildə 820 min ton dəniz yanacağı transit satışı ilə Türkiyə bazarının lideri olub.

"SOCAR MARINE"nin həm satış, həm də əməliyyat sahəsindəki üstün performansı ilə 12-ci Beynəlxalq Qızıl Lövbər Dənizçilik Müvəffəqiyyəti Mükafatlarında "Logistika və gəmi yanacaq tədarükü kateqoriyası"nda ən uğurlu şirkət mükafatına layiq görülməsi də onu göstərir ki, "SOCAR Türkiyə" bütün sahələrdə qarşıya qoyduğu hədəflərə doğru inamla addımlayır.

Həm "SOCAR Türkiyə"nin Baş icraçı direktoru Zaur Qəhrəmanovla, həm də "SOCAR-Türkiyə Emal və Neft Kimya İş Birliyi"nin rəhbəri və "Petkim"in baş direktoru Anar Məmmədovla söhbətlərdə Azərbaycana məxsus şirkətin yaxın və uzaq perspektivdə duran bir çox mütərəqqi layihələri haqqında məlumatlar aldıq. Hər bir layihənin əsasında ən müasir və mütərəqqi texnologiyaya söykənən istehsal sahələrinin qurulması dayanırdı.

Türkiyəyə səfərdən geri dönərkən bütün media nümayəndələri kimi, məndə də belə bir əminlik yarandı ki, qardaş ölkənin sənaye nəhənginə çevrilmiş Azərbaycana məxsus "SOCAR Türkiyə" bu mütərəqqi layihələri reallaşdırmaqla ən yaxın zamanlarda beynəlxalq iqtisadi məkanda da öz layiqli yerini tutaraq, milli iqtisadiyyatımıza və xalqımıza daha böyük töhfələr verəcək.

***İlqar RÜSTƏMOV,***
***"Xalq qəzeti"***
***Bakı – İstanbul – İzmir – Bakı***